

**Mən istəyirəm ki, hamınız təbiəti qoruyan olasınız. Təbiətə zərər vuranlar, ağac kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir. Ona görə də qurub yaradın.**

**Heydər Əliyev**

# Ekologiya bu gün

**Azərbaycan Respublikası müstəqillik qazanandan sonra digər sahələrdə olduğu kimi ətraf mühitin mühafizəsi sahəsində də öz müstəqil siyasətini formalaşdırmağa başladı.**

Ekoloji problemlər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ümummilli liderimiz, suveren Azərbaycanımızın qurucusu Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Vətənini ürəkdən sevən ümummilli liderimiz respublikamızın üzləşdiyi ekoloji problemləri görmüş və onların aradan qaldırılması üçün var qüvvəsi ilə çalışırdı. O, bu məqsədlə ətraf mühitin mühafizəsinə və insanların sağlamlığına təminat yaradan mütərəqqi texnologiyaya malik yeni müəssisələrin tikilməsinə, yaşıllıqların və parkların salınmasına, ekologiya sahəsində mütəxəssislərin hazırlanmasına xüsusi diqqət yetirmişdir.

Bu diqqətin nəticəsi kimi 1995-ci il noyabr ayının 12-də qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasında ilk dəfə olaraq "Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır" (39-cu maddə) maddəsi öz əksini tapdı.

8 iyun 1999-cu ildə "Ətraf Mühitin Mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edildi. Bu qanunda hər kəsin ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq vəzifəsi öz əksini tapdı.

Ətraf mühitin mühafizəsi, insanların sağlam mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadəsi hal-hazırda daim ölkə başçısının diqqət mərkəzindədir.

Respublika Prezidenti İlham Əliyev cənabları tərəfindən imzalanmış 28 sentyabr 2006-cı il tarixli "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər planı" haqqında Fərman bu sahədə olan problemlərin həllinə yönəldilən sənədlərdən biridir.

Ölkəmizdə ekoloji vəziyyətin tənzimlənməsində mühüm əhəmiyyət daşıyan bu sənəd, eyni zamanda ekoloji maarifləndirməni, bu sahədə görüləcək işlərin geniş əhali kütləsinə çatdırılmasını tələb edir.

İlham Əliyev cənablarının demişdir "Biz iqtisadi cəhətdən möhkəmlənmişik. Azərbaycanın uğurlu iqtisadi inkişafı artıq gerçəkdir, faktdır və gələcəkdə bizə böyük imkanlar gətirəcəkdir.

Ancaq insanların sağlamlığı, ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su - bütün bunlara biz çox böyük diqqət göstərməliyik..."

Ekologiyaya diqqət göstərmək ölkəmizin hər bir vətəndaşı kimi biz kitabxanaçıların da qarşısında böyük vəzifələr qoyur. Xalqımızın tarixində müstəsna rol oynamış təbiətin bizə bəxş etdiyi yeraltı və yerüstü sərvətləri qorumaq hər birimizin müqəddəs borcudur.

Xalq şairi Hüseyn Arif demişkən, biz təbiətə o qədər yaxın olmalıyıq ki, "Bülbül enib budaqdan çiynimizə qonsun", "Oğrun baxışlı maral sərin çeşmə başında bizə qonaq olsun". Doğrudan da, təbiətin qorunmasını insanın ona olan məhəbbətində, həssaslığında axtarmaq lazımdır.

MKS işçilərinin birinci vəzifəsi respublika rəhbərliyinin ekoloji siyasətini oxuculara çatdırmaqdır. 2010-cu ilin "Ekologiya ili" elan olunması ilə əlaqədar MKS-də xüsusi tədbirlər planı hazırlanıb həyata keçirilir. Tədbirlər planında nəzərdə tutulan sərgilər, biblioqrafik məlumatlar təşkil olunub, bağça və məktəb yaşlı uşaqların iştirakı ilə "Təbiəti sevənlər", "Ətraf mühit nədir?" mövzularında söhbət keçirilib.

Uşaqlarda doğma yurdun təbiətini, flora və faunasını qorumaq, yaşıllıq yaratmaq, ağac əkmək və becərmək, təbiətə qarşı mərhəmətli və qayğıkeş olmaq hissi aşılanıb. Firudun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Metodika şöbəsinin əməkdaşlarının iştirakı ilə "Günəşli körpü" başlıqlı "Ekoloji" bayram tədbiri keçirilib.

Eyni zamanda Mərkəzi kitabxanada "Ekologiyaya aid qanunları tanıyırsınızmı?" başlıqlı söhbət keçirilib, "Azərbaycan təbiəti şairlərin gözü ilə" mövzusunda ədəbi-bədii gecə təşkil edilib.

Kitabxanamızda narkomaniyanın, alkoqolun, spirtli içkilərin zərərli nəticələri haqqında "Narkomaniya ağ ölümdür", "Narkomaniyaya qarşı mübarizə hamımızın borcudur", "Alkoqol sağlamlığın düşmənidir" və s. kütləvi tədbirlər hazırlanıb.

Ümumiyyətlə "Ekologiya ili" ilə bağlı hər bir iş kitabxanaçıların diqqət mərkəzindədir.

Məhəmməd Peyğəmbərin yaxın bir əsabəsi soruşur ki, nə edək ki, savab yükümüz bir az da ağır gəlsin? Peyğəmbər əleyhissalam cavab verir ki, ömrünüzə bir gün qaldığını bilsəniz də yenə ağac əkin, ən böyük savab ondandır. Respublikamızda "Hərəyə bir ağac əkək" layihəsi Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə işlənib hazırlandı. Rayonumuzun bütün sakinləri kimi biz kitabxanaçılar da bu aksiyaya böyük həvəslə qoşulduq. Kitabxanaçılar bu aksiyanın təbliğatçısı olmaqla bərabər, həm də iştirakçısına çevrildilər. Filial kitabxanaların müdirləri yaşadıqları ərazidə və işlədikləri müəssisələrin həyətində hərəyə 50 ağac və gül kolu əkib becəriblər.

Bu gün rayonumuz icra başçısı Şahin Məmmədov cənablarının rəhbərliyi ilə gündən-günə abadlaşır, gözəlləşir. Mübaliğəsiz demək olar ki, gecəsi gündüzündən seçilmir.



**Ümummilli liderimizin adını daşıyan park, Muğam Mərkəzi rayonumuza füsunkar bir görkəm verməklə yanaşı, insanların mənalı istirahətini, eyni zamanda sağlamlığını təmin edir. Biz kitabxanaçılar rayonumuzda keçirilən imeciliklərdə fəal iştirak edir, rayonumuzun abadlaşması, yaşıllaşması, ekologiyanın qorunması üçün əlimizdən gələni edir və bundan sonra da edəcəyik.**

Təranə MƏMMƏDOVA,
*Ağcabədi rayon MKS-nin direktor müavini*